FƏRİBA İBRAHİMİ
*Bakı DövlətUniversitetinin Sosiologiya kafedrasının aspirantı*

# İRANDA QADINLARIN IŞGÜZAR FƏALIYYƏTI VƏ ONLARIN IŞGÜZARLIĞININ INKIŞAFI YOLLARI

Mağara dövründən günümüzədək insan həyatının inkişafı fərqli şəkildə izah edilmişdir. Lakin bütün təhlillərdə diqqətdən kənarda qalan bir məqam vardır ki, bu da "dəyişiklik amili"dir, yəni təbii, bioloji inkişafa səbəb olan və onu reallaşdıran qüvvədir. Bu gün hər kəsə bəllidir ki, dəyişikliyə səbəb olan bu amil, yəni işgüzarlıq bəşər həyatının ilk dövrlərindən indiyədək mövcud olmuşdur və böyük ehtimalla gələcəkdə də onun nəticəsində insan həyatında bir sıra dəyişiklər baş verəcəkdir. Ümumi anlamda işgüzarlıq fərd, yaxud kiçik sosial qruplar tərəfindən yeni iş, fəaliyyət sahələrinin yaradılması kimi başa düşülür. (Əhmədpurdariyani, 1999)

İşgüzar fərd yaradıcı fəaliyyətin və innovasiyaların başlıca amili, işgüzarlıq isə həmin fərd tərəfindən qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün məqsədyönlü şəkildə idarə edilən prosesdir. Bu iki məfhum bir-birini tamamlayır və həyatın müxtəlif sahələrində baş verən dəyişiklik və inkişafın sayəsində sözügedən anlayışlar böyük əhəmiyyət kəsb etmişdir. Bu və ya digər təsisatın, müəssisənin, qurumun, təşkilatın mövcudluğunun qorunması, gələcəkdə də fəaliyyətinin təmin edilməsi novatorluq, təşəbbüskarlıq, yeni məhsulların istehsalı, günün tələblərinə cavab verən layihələrin icrası və səmərəli üsulların tətbiqindən keçən yeni çıxış yollarının axtarışını tələb edir.

İşgüzarlıq riskli, çıxış yolu görünməyən məqamlarda fürsətlərin doğru şəkildə dəyərləndirilməsi və resurslardan səmərəli istifadə əsasında formalaşır. Yeni təşəbbüslərin və innovasiyaların gerçəkləşdirilməsi, yeni fəaliyyət sahələrinin yaradılması üçün işgüzarlıq çağında öz əksini tapan potensiala ehtiyac duyulur. Bu baxımdan yaşadığımız dünya bu prosesləri bütün özəllikləri ilə qavraya bilmiş və hətta son illərdə qadınlar xüsusunda bu konsepsiyanı daha da inkişaf etdirmişdir.

Aparılan tədqiqatlarda qadınların öz fəaliyyətlərini dörd başlıca istiqamətdə həyata keçirdikləri müəyyən edilmişdir:

1) Bilik və bacarıqların artırılması yolu ilə işgüzarlıq potensialının yaradılması;
2) İqtisadiyyatın müxtəlif sferalarında fəaliyyət imkanlarının yaradılması;
3) Fəaliyyət imkanının yaranması üçün vergi güzəştləri kimi yardımların göstərilməsi;
4) İşgüzar qadınları bir araya gətirən yerli, regional və beynəlxalq təsisatların yaradılması.

Bu tədbirlər nəticəsində bir sıra ölkələrdə işgüzar qadınlar yaşadıqları cəmiyyətdə işgüzar fəaliyyətin mühüm qismini həyata keçirərək milli iqtisadiyyatın inkişafının təkanverici qüvvəsinə çevrilmişlər. Bu təcrübələr, şübhəsiz, İranda da qadınların işgüzarlıq səviyyəsinin artırılması üçün örnək olaraq götürülə bilər (Sabir, 2003, səh. 8).

İran qadınları üçün irəli sürülən işgüzarlıq modelində ən önəmli məsələ ailə institutunun mövcudluğunun nəzərə alınmasıdır. Dövlət bu işdə gərəkli zəmini yaratma, inkişaf strategiyasını müəyyən etmə və həyata keçirilən fəaliyyətləri dəstəkləmə funksiyalarını icra edir. Qeyri-dövlət strukturları, yəni QHT-lər, korporativ müəssisələr və özəl şirkətlər də öz növbəsində işgüzarlıq münasibətlərinin stimullaşdırılmasında, genişləndirilməsində əhəmiyyətli rola malik ola bilər.

Beləliklə, işgüzar qadınlar hər biri öz mövqeyi etibarilə dəstəkləyici funksiyaya malik olan bu üç təsisatın (ailə, dövlət və qeyri-dövlət strukturları) kəsişmə nöqtəsində

yer alır və bu təsisatların rolunun artması ilə qadınların işgüzarlıq səviyyəsi də nəzərə çarpacaq dərəcədə artacaqdır.

İşgüzarlıq anlayışı təqribən, üç əsr öncə meydana gələn və fərqli şəkildə izah edilən bir anlayışdır.

İşgüzarlıq fransızca "təəhhüd qəbul etmək" anlamını daşıyan "Entreprendre" istilahı şəklində elmi dövriyyəyə daxil olmuşdur. İşgüzarlıq anlayışına müxtəlif təriflər verilmişdir. Bu istilahı iqtisad elminə gətirən ilk alim Riçard Kantillon (1730) ona belə bir tərif vermişdir: "İşgüzar -əmək vasitələrini bazara çıxarılacaq məhsulların istehsalı məqsədilə satın alan şəxsdir. İşgüzar alqı-satqı əsnasında bazara çıxarılacaq məhsulların qiymətini dəqiq bilmir". O, topdansatış subyektlərini işgüzarların ən mühüm sinifi kimi görürdü.

Jan Batist Sey (1803) işgüzarı özünün iqtisadi fəaliyyət sahəsində istehsal məsuliyyətini öz üzərinə götürən şəxs hesab edirdi. Onun fikrincə, işgüzarlıq resursların səmərəliliyinin, onlardan istifadənin səviyyəsinin daha da artırılmasıdır.

Maklelandın (1963) nəzərincə, işgüzar şəxslər və dairələr daha artıq uğurlara ehtiyac duyurlar və bu ehtiyac onları daha səmərəli işgüzarlıq mövqeyi seçməyə sövq edir.

Daha artıq uğurlara, nailiyyətlərə ehtiyac duyan insanlarda aşağıdakı xüsusiyyətlər öz əksini tapır:

1) Qərarvermə məqamında şəxsi məsuliyyəti (öz iradəsinə əsaslanaraq qərar verməyi) daha məqsədəuyğun hesab edirlər;

2) Bacarıqların məntiqi nəticəsi olaraq riskli hallarla daha az qarşılaşırlar;

3) Öz qərarlarının nəticələrinə və fəaliyyətlərinin səmərəliliyinə qarşı olduqca həssas olurlar.

Fran Nayta (1921) görə işgüzarlar riskli hallarda qərar qəbul edən və qəbul etdikləri qərarların nəticələrinə görə məsuliyyət daşıyan şəxslərdir.

Nüfuzlu Vebster nəşriyyatı tərəfindən ali məktəb tələbələri və elmi işçilər üçün nəşr edilən lüğətdə haqqında bəhs etdiyimiz istilaha belə tərif verilir: "İşgüzar bu və ya digər iqtisadi fəaliyyətin risklərini aradan qaldırmağı və problemlərin qarşısını almağı öz öhdəsinə götürən şəxsdir" (Əhmədpur, 1380 h.ş., səh. 4).

Piter Drakerə (1985) görə, işgüzar öz sərmayəsi ilə kiçik və yeni bir iqtisadi fəaliyyətə başlayan şəxsdir. (Əhmədpur, 1999, səh. 21)

İşgüzarlıq imkanlardan faydalanmaq məqsədilə bir sıra resursların bir araya gətirilməsi yolu ilə dəyər yaradılması prosesindən ibarətdir. (Əhmədpur, 1998, səh. 6)

İşgüzarlıq - fəaliyyət imkanlarının düzgün dəyərləndirilməsi, bu imkanlarla paralel ortaya çıxa biləcək risklərə qarşı tədbirlərin alınması yolu ilə və eləcə də hər hansı layihənin icrası üçün gərəkli olan maliyyə, iqtisadi və sosial resursların təmin edilməsi məqsədilə idarəetmə və əlaqələndirmə qabiliyyəti əsasında dəyər yaratma səyidir. (Kərimzadə, 2000, səh. 4)

İşgüzarlıq istehsal proresində yeni məhsulların, yeni üsulların ortaya qoyulması, yeni bazarın yaradılması, yeni resursların üzə çıxarılması və sənayedə bu və ya digər yeni strukturun formalaşdırılması ilə mülahizə olunan fəaliyyət növüdür. (C. Şumpeter, 1934)

İşgüzarlıq müxtəlif cəmiyyətlərdə fərqli sivilizasiyaların mövcudluğu ilə əlaqədar olaraq fərqli şəkildə təzahür edir. İşgüzar fəaliyyətdəki fərqlilikləri anlamaq üçün ictimai rəylər, fəaliyyətin dəyərləndirilməsi, fərdi istəklər və milli amallar, dini sektalar, təlim-tərbiyə kimi amillərə diqqət yetirmək lazımdır. (C. Makquayr, 1962)

Beləliklə, işgüzarlıq riskli məqamlarda imkanların dəyərləndirilməsi və resurslardan doğru şəkildə istifadə əsasında yeni təşəbbüslərin, innovasiyaların, fəaliyyət istiqamətlərinin meydana çıxarılması prosesidir. İşgüzar isə mövcud fürsətləri ortaya çı-

xararaq dəyərləndirilməklə, habelə resurslardan məqsədyönlü şəkildə istifadə etməklə çıxış yolu görünməyən riskli məqamlarda təşəbbüskarlıq, novatorluq nümayiş etdirən, yeni fəaliyyət istiqamətləri ilə çıxış edən şəxsdir. (Sabir, 2003, səh. 14)

İşgüzar insanların başlıca xüsusiyyətləri: özünə inam, riskə getməkdən çəkinməmək, nəticələrə həssaslıqla yanaşma, yaradıcılıq, rəhbərlik və istiqamətləndirmə bacarığı, uzaqgörənlik.

Bu və ya digər cəmiyyətin daimi tərəqqisi, o cümlədən insan resurslarının inkişafı dövlətin ən güclü iqtisadi və sosial amil olaraq fərdlərin istedad və qabiliyyətlərinin üzə çıxarılması üçün gərəkli zəmini, əlverişli mühiti yaratmaqla yanaşı cinsindən asılı olmayaraq bütövlükdə cəmiyyətin iqtisadi baxımdan fəal qisminin potensialından istifadə edərək bu potensialdan yararlanmasına bağlıdır.

Mövcud demoqrafik vəziyyət dünya əhalisinin yarısını qadınların təşkil etdiyini göstərir. Bu baxımdan qadınların işçi qüvvəsi kimi yaşadıqları ölkələrin iqtisadi və sosial strukturunda tutduqları mövqeyə diqqət yetirmək zəruridir. Məhz bu səbəbdən bir sıra dövlətlər ağır iqtisadi şəraitdə qadınların əmək qabiliyyətindən faydalanmaqla bağlı özünəməxsus tədbirlərin, strategiyaların icrası sayəsində iqtisadi böhranları aradan qaldırmağa, inkişaf yolunda sürətlə irəliləməyə müvəffəq olmuşlar. Dövlət tədbirlərinə təsir qüvvəsi qadınların cəmiyyətin iqtisadi və sosial həyatındakı rolunun artmasından xəbər verir.

Son 50 ildə dünyanın əmək bazarında qadınların rolu nəzərə çarpacaq dərəcədə dəyişmişdir. 1940-cı ildə iqtisadi baxımdan fəal qadınlar zərif cinsin nümayəndələrinin 26%-ni təşkil edirdi ki, onların da əksəriyyəti tibb bacısı, katibə, yaxud müəllimə kimi çalışırdılar. İkinci dünya müharibəsi əmək bazarının qapılarını qadınların üzünə açdı. Lakin "ailədə hökm sahibi kişidir", "qadın yalnız evdarlıq vəzifəsini daşıyır" kimi şüurlara hakim olan düşüncələr zəruri hallar istisna olmaqla, qadınların geniş fəaliyyət imkanlarının qarşısını alırdı. Qadınların işinə kişilərə nisbətən daha az əhəmiyyət verilirdi və çox zaman onlar yarımgünlük işlərdə çalışırdılar. Aldıqları məvacib də cüzi məbləğ təşkil edirdi. Belə ictimai təfəkkür tərzi stereotipləşmiş iş yerləri meydana gətirdi və nəticədə qadınlar üçün yalnız maliyyə, ticarət, sahibkarlıq, yaxud elmi-tədqiqat sahələri kimi sferaları əhatə edən olduqca məhdud fürsətlər yaratdı. Qadınların öz biznesini qurmaq imkanı olduqca aşağı idi. Sonrakı illərdə qadınlar özləri haqqında bu ictimai baxışları dəyişdirməyə çalışdılar. Digər tərəfdən isə dövlətlər də cəmiyyətin iqtisadi həyatında qadınların rolunu artırmaq məqsədilə yeni iş yerlərinin açılması və xüsusilə, qadınların fəaliyyət imkanlarının artırılmasına yönəlik siyasətlərin həyata keçirilməsi istiqamətində səylərini artırdılar. Qadınların işgüzarlığı məsələsi 70-ci illərdən etibarən, aktuallıq kəsb etməyə başladı.

Bəzi ölkələrdə qadınların işgüzar fəaliyyətinin həmin ölkənin iqtisadiyyatındakı payına nəzər salsaq, görərik ki, onlar işgüzarlıq inkişafı üçün müəyyən edilmiş yolda uğurla irəliləyə bilmişlər. (Sabir, 1993, səh. 26)

Tədqiqatlar göstərir ki, istər işgüzar kişilər, istərsə də işgüzar qadınlar çalışmaq zərurəti və başqasından asılı olmamaq ehtiyacı üzündən fəaliyyət meydanına atılırlar. Bir çox hallarda hər iki cinsin nümayəndələri uğursuzluq, öncəki işindən narazılıq və ya ətrafındakı mühiti dəyişdirmək kimi fikirlərin təsiri altına düşürlər. Hər iki cinsin nümayəndələri iş həyatında coşğulu və enerjilidir. Bunula belə, bir sıra digər cəhətlərə görə onlar arasında müəyyən fərqlər də vardır. Bu fərqlilikləri işə başlama məqamındakı stimulda, sərmayə qoyuluşu xüsusundakı fərqli baxışlarda, bilavasitə onların şəxsiyyəti ilə əlaqədar özəlliklərdə, işsizlik və təcrübəsizliyin səviyyəsində və eləcə də seçdikləri fəaliyyət növündə müşahidə etmək olar. Sadalanan fərqliliklərə qısaca aydınlıq gətirməyi məqsədəuyğun hesab edirik: ((Sabir, 2003, səh. 18)

**1) İşgüzarlıqda stimul:** İşgüzar qadınlar işlərinə kişilərdən fərqli stimullarla yanaşırlar, onlar dəyişkən qabiliyyətlər sisteminə malikdirlər. İşgüzar qadınların fəaliyyətinin ilk mərhələsində təsirli olan amillər, xüsusilə, dəstəklənmə, maliyyə mənbələri və qarşıya çıxan problemlər baxımından kişilərin işgüzarlığına təsir edən amillərdən fərqlənir. (Haysriş, 1984, səh. 64)

**2) Başlanğıc:** Amerikada 20 işgüzar qadın arasında aparılan bir sorğu göstərmişdir ki, onları fəaliyyətə cəlb edən başlıca stimul çalışmağa, inkişafa və öz qazancından razılığa ehtiyac duyğusu olmuşdur. Onların işə başladıqları ilk mərhələdə qarşılaşdıqları başlıca problem gender bərabərsizliyinə əsaslanan etibarsızlıqdır. Növbəti əsaslı sıxıntı isə marketinq və rəqabətə davamsızlıqla bağlıdır. (Suzan, 1998)

**3) Maliyyə mənbələri:** İşə başlamaq üçün qoyulan sərmayə xüsusunda da işgüzar kişi və qadınların fəaliyyətləri fərqlənir. Belə ki, kişilər gərəkli sərmayəni təmin etmək üçün öz imkanları ilə yanaşı sərmayədarların himayəsindən, bank kreditlərindən, yaxud borc almaq imkanlarından istifadə etdiyi halda, qadınlar əksər hallarda yalnız şəxsi əmlaklarına və hesablarına arxalanmalı olurlar.

**4) Əmək stajı:** əmək stajı, peşəkarlıq baxımından da kişilərlə qadınlar arasında fərqliliklər özünü göstərir. Hər iki cinsin nümayəndələri öz fəaliyyət sahəsində təcrübəli olduqları halda belə, bir qayda olaraq kişilər bir çox sahələrdə qadınlardan daha artıq fəaliyyət imkanlarına malikdir.

**5) Psixoloji xarakteristika:** Psixo-sosioloji zəmində işgüzar qadın və kişilər arasında oxşar cəhətlər mövcuddur. Hər iki cinsin nümayəndələri enerjili, çalışqandırlar və müstəqilliyə meyllidirlər. Bunula belə, kişilər, adətən, qadınlara nisbətən daha artıq özünəgüvən və daha az mülayimlik və təsirlənmə duyğularına malik olur ki, bu da onlara idarəetmə xüsusunda daha ciddi tədbirlər görmək imkanı verir.

**Qadınların işgüzarlığı ilə bağlı qarşıya çıxan maneələr:**

Bir sıra ölkələrdə qadınların işgüzarlıq xüsusunda qarşılaşdıqları əngəllərin araşdırılması nəticəsində müəyyən edilmişdir ki, işgüzar qadınların üzləşdikləri problemlər üç qismə bölünür. Birinci qisim əngəllər bütün işgüzar kişi və qadınlar üçün xarakterikdir. İkinci qisim problemlər ailə, sosial və hüquqi məsələlərlə bağlı olaraq qadınlar üçün daha aktualdır. Üçüncü qisim əngəllər yalnız qadınların qarşılaşdıqları problemləri əhatə edir. Ümumiyyətlə, bütün işgüzar insanların üzləşdikləri problemlər iki qismə bölünə bilər: işə başlayarkən qarşıya çıxan əngəllər və bu və ya digər fəaliyyətin davam etdirilməsi ilə bağlı ortaya çıxan problemlər.

Beynəlxalq Əmək Təşkilatı 1998-ci ildə öz bulletenində qadınların üzləşdikləri sıxıntılarla bağlı aşağıdakı şəkildə təsnifat aparmışdır:

- davranışla bağlı problemlər;
- öhdəliklərin icrası ilə bağlı problemlər;
- sosial-mədəni problemlər;
- təhsillə bağlı qarşıya çıxan problemlər;
- işlə bağlı yaranan əngəllər;
- infrastrukturla bağlı ortaya çıxan maneələr;
- hüquqi tənzimləmə ilə bağlı qarşıya çıxan problemlər.

Tədqiqatçı F.Sabir araşdırmaya cəlb etdiyi işgüzar qadınlar tərəfindən sadalanan problemləri aşağıdakı kimi üç qismə bölür:

**1 – Şəxsi məsələlərlə bağlı qarşıya çıxan problemlər.** Bunlar işgüzar qadınların şəxsi və ailə durumu ilə bağlı qarşılaşdıqları məhdudiyyətləri əhatə edir. Bu problemlər ailə vəziyyəti və həmin qadının peşəsi sahəsində bilik və bacarığı ilə bağlı problemləri əks etdirir.

**2 – Təşkilati problemlər.** Onların çalışdıqları müəssisənin durumu ilə bağlı əngəllər. Bu əngəllər əsasən maliyyə, texniki, marketinq və insan resursları ilə bağlı problemləri əhatə edir.

**3 – Sosial mühitlə bağlı problemlər.** Bu problemlər başlıca olaraq mədəni, ictimai və müəyyən mənada hüquqi amillərlə bağlı qarşıya çıxan sıxıntıları əhatə edir.

İşgüzarlığın qarşısını alacaq əngəllərin aradan qaldırılması istiqamətində təşəbbüslər və həll yolları aşağıdakılardır:

1) Araşdırmada rəyi soruşulan işgüzar şəxslər ailə ilə bağlı problemlərin aradan qaldırılması və ya azaldılması üçün aşağıdakı həll yollarını seçmişlər:

2) Bilik və təcrübə ilə bağlı qarşıya çıxa biləcək əngəllərin aradan qaldırılması, yaxud azaldılması üçün həyata keçirilən tədbirlər:

3) Maliyyə ilə bağlı problemlərin həlli istiqamətində görülən tədbirlər:

4) Texniki problemlərin aradan qaldırılan, yaxud azaldılması üçün həyata keçirilən tədbirlər:

5) Satış və marketinqlə bağlı qarşıya çıxan maneələrin ortadan qaldırılması və ya azaldılması məqsədilə görülən tədbirlər:

6) İnsan resursları, kadr çatışmazlığı ilə bağlı problemlərin həlli istiqamətində gerçəkləşdirilən tədbirlər və təşəbbüslər:

7) Sosial (ictimai-mədəni) amillərlə bağlı qarşıya çıxa biləcək maneələrin aradan qaldırılması üçün irəli sürülən təşəbbüslər və görülən tədbirlər:

8) Hüquqi problemlərin həlli ilə bağlı həyata keçirilən tədbirlər.

**Xülasə:**

İşgüzar insanlar şəxsi, inzibati yaxud sosial məhdudiyyətlərlə qarşılaşmalarına baxmayaraq doğru strategiya müəyyən etməklə mövcud maneələri aşa bilərlər. Qadınların işgüzarlıq səviyyəsinin yüksəldilməsi üçün əlverişli strategiyanın hazırlanması aşağıdakı üç mərhələni əhatə edir:

**1 – Məqsədin müəyyən edilməsi.** Məqsəd qadınların işgüzarlıq səviyyəsinin yüksəldilməsidir.

**2 – Düzgün dəyərləndirmə.** Bu və ya digər strategiya o zaman praktik uğurlarla nəticələnə bilər ki, mövcud şəraitin reallıqlarına, başqa sözlə, potensial maneə və imkanların düzgün dəyərləndirilməsinə əsaslansın. Burada iki məqama diqqət yetirmək zəruridir:

a) qadınlara sosial statusu, məsuliyyətləri və yaradıcılıq qabiliyyəti olan şəxsiyyətlər kimi baxılmalıdır;

b) bütün iranlı işgüzar qadınlara xas olan cəhətlərin əhəmiyyəti nəzərə alınmalı, başqa sözlə iki məqama, onların müsəlman və iranlı olmalarına, eyni zamanda sahib olduqları mədəniyyət, adət-ənənələr və mənəvi keyfiyyətlərə diqqət yetirilməlidir.

**3 – Strategiyanın hazırlanması.** Nəzərdə tutulan strategiya aşağıdakı üç elementi özündə əks etdirməlidir:

a) Ailənin mövcudluğunun nəzərə alınması və qorunması;

b) Dövlətin ümumi siyasətləri müəyyənetmə və himayədarlıq funksiyasını öz üzərinə götürməsi;

c) QHT-lərin, özəl sektorun da öz növbəsində qadınların işgüzar fəaliyyətinə zəmin yaratması və onları dəstəkləməsi.

İşgüzar mühitin yaranmasına əngəl törədən məhdudiyyətlərin, maneələrin aradan qaldırılması və ailə, dövlət və qeyri-dövlət təsisatlarının mövqeyinin güclənməsi ilə İran qadınlarının işgüzarlıq səviyyəsi daha da artacaqdır. Hakimiyyət strukturları qadınların işgüzar fəaliyyətini dəstəkləmə və bununla bağı məsələləri hüquqi müstəvidə həll etmə siyasətini həyata keçirməlidir.

## *ƏDƏBIYYAT:*

Fars dilində:
1. Əhmədpurdariyani, Mahmud, "İşgüzarlıq", Tehran, Şerkəte Pərdis nəşriyyatı, 1999.
2. Əhmədpurdariyani, Mahmud, "Sənaye sektorunda işgüzar idarəedici kadr hazırlığının planlanması və modelləşdirilməsi", Ph.D. dissertasiyası, Tehran, Təriyət-e Modərres Universitetinin Sosial elmlər fakültəsi, 1998.
3. Sabir, Firuzə, "İranda qadınların işgüzarlıq səviyyəsinin yüksəldilməsi yolları", Tehran, Rouşəngəran və Motaleate zənan nəşriyyatı, 2002.
4. Səmədağayi, Cəlil, "İşgüzar şəxslərin iqtisadi fəaliyyətə cəlb edilməsi və onların potensialının inkişaf etdirilməsi üçün əlverişli mühitin təşkili üsulları", İdarəetmə işinin təşkili üzrə magistr dərəcəsi almaq üçün təqdim edilmiş buraxılış işi, Tehran, Sazemane Modiriyyəte Sənəti, 1998.
5. Maykl, Y. "Xırda ticarət obyektlərinin səmərəli idarəsi və işgüzarlıq", tərc.: Əkbər Kərimzadə, İsfahan, şerkəte Zubahəne Esfəhan, 2000.
6. Meredis, Cefri və Nikson, Rayt, "İşgüzarlıq", tərc.: Məhəmmədsadiq Bəniiyan, Tehran, Beynəlxalq Məmək Təşkilatının Tehran nümayəndəliyi, əmək və sosial müdafiə təşkilatı, 1992.
7. "Reyhane" dərgisi, Qadın cəmiyyətləri məsələlərinin tədqiqi mərkəzi, səh. 101, 2002.

ingilis dilində:
1. Hisrich, Robert, *The woman Entreereneur characteristics, problems and prescriptions for success,* 1984.
2. Suzanne, *Small Business development and gender of owner,* Journal of Management Development, vol. 17, No. 1, pp. 75-82 on CD University Press, 1998.
3. Hisrich, Robert, *The women Entrepreneur, cundida Brush one The Entrepreneurs Early lg development,* 1985.

**ФАРИБА ИБРАГИМИ**

## ПУТИ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ СОЦИАЛЬНОЙ АКТИВНОСТИ ЖЕНЩИН ИРАНА

В статье рассматриваются основные направления повышения эффективности социальной активности женщин Иранской исламской Республики. Делается попытка выявления потенциала женщин в таких сферах, как экономика, социально-политическая деятельность, духовная сфера. Отмечается, что установки руководящих структур порой направлены против гендерного равновесия в обществе, против создания в обществе благоприятной обстановки для реализации потенциала женщин.

**FARIBA IBRAGIMI**

## WAYS OF INCREASE OF EFFICIENCY OF SOCIAL ACTIVITY OF WOMEN OF IRAN.

In article the basic directions of increase of efficiency of social activity of women of the Iranian Islamic Republic are considered. Attempt of revealing of potential of women in such spheres, as economy, sociopolitical activity, spiritual sphere becomes. It is noticed that installations of supervising structures at times are directed against gender balance in a society, against creation in a society of favorable conditions for realization of potential of women.

***Rəyçilər: fəl.e.n.Q.Y.Abbasova, t.e.d.İ.X.Zeynalov.***
***BDU-nun Sosioal elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının 15 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***